*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 iyul 2016-cı il № 58 (2073) Qiymətı 25 qəpik


# Dövlətin qayğısı ordumuzun hərbi qüdrətini daha da artırır

## Ali Baş Komandanın göstərişinə əsasən, hərbi hissələrdə tikinti-inşaat işləri davam edir



*Heç kimə sirr deyil ki, Azərbaycanın iqtisadi potensialı artdıqca, inkişafına önəm verilən əsas sahələrdən biri ordu quruculuğudur. Ölkəmizin hərbi qüdrətinin gücləndirilməsi müstəqilliyimizin möhkəm dayağının təmin edilməsilə yanaşı, həm də qarşımızda dayanan mühüm vəzifədən - işğal edilmiş ərazilərimizin düşməndən azad edilməsindən irəli gəlir.*

Dövlətimizin humanist mövqe nümayiş etdirməsinə baxmayaraq, işğalçı Ermənistan bəd niyyətindən əl çəkmək istəmir və buna görə də torpaqlarımızın bir hissəsi neçə illərdir ki, hərbi təcavüzə məruz qalıb. Əlbəttə, belə bir şəraitdə Azərbaycanın münaqişənin həllində hərbi vasitəyə əl atması qaçılmazdır. Bu ilin aprel hadisələri də bir daha sübut etdi ki, Azərbaycan istənilən yolla öz ərazilərini işğaldan azad etməyə qadirdir.

Silahlı Qüvvələr Günü ərəfəsində Bakının Xətai rayonunda hərbçilər üçün inşa edilmiş yaşayış binasının şəraiti ilə tanış olan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışı zamanı bildirib ki, dövlət büdcəsinin əsas xərcləri hərbi məqsədlərə sərf olunur. "Büdcə xərclərinin artması nəticəsində son illər Azərbaycanda görülən işlər göz qabağındadır. Bu gün ordumuz maddi-texniki təminat baxımından güclü ordular sırasındadır. Son illər ərzində aldığımız silah-sursat, texnika ən yüksək tələblərə cavab verir. Yəni, bu gün ordumuzun bütün ehtiyacları təmin edilir."

(Ardı 2-ci səhifədə)



"Əsgər olaraq qürurluyam!"

3-cü səhifədə



Ordunun təminatı daim nəzarətdədir

4-cü səhifədə



"Milli mətbəximizə üstünlük veririk"

5-ci səhifədə



Qartal uçuşu

6-cı səhifədə

# Müdafiə naziri daha bir hərbi hospitalın tikintisi ilə tanış olub

## Mühəndis-istehkam hərbi hissəsində yeni tikililərin açılışı həyata keçirilib



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə tikinti-inşaat işləri davam edir.**

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və digər rəhbər heyət daha bir hərbi hospitalın tikintisi ilə maraqlanıb, eləcə də mühəndis-istehkam hərbi hissəsində yeni inşa edilən tikililərin açılışını həyata keçirib.

Qaradağ rayonunun Ələt qəsəbəsində tikintisi davam edən hərbi hospitalda görülən işlər barədə məlumat verən Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev bildirib ki, bu müəssisə ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulub və inşaat işlərinin yekununda müasir tibbi avadanlıqlarla tam təmin olunacaqdır.

Müdafiə naziri tikintinin gedişi ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verib.

Sonra general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin əlahiddə mühəndis-istehkam hərbi hissəsinə gəlib. Yeni inşa edilərək müvafiq



avadanlıqlarla tam təmin edilmiş əsgər yataqxanaları, tibb məntəqəsi, ərzaq anbarları, döyüş texnikası parkı və digər tikililərə baş çəkən nazirə görülən işlər barədə ətraflı məlumat verilib.

Bildirilib ki, birbaşa təyinatları üzrə praktik fəaliyyətləri üçün bölmələr mühəndis qoşunlarında silahlanmaya yeni qəbul edilmiş müasir texnika, xüsusi avadanlıq və vasitələrlə təmin olunub. Sonra Müdafiə naziri hərbi hissənin silahlanmasında olan xüsusi texnikalara baxış keçirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Dövlətin qayğısı ordumuzun hərbi qüdrətini daha da artırır

## Ali Baş Komandanın göstərişinə əsasən, hərbi hissələrdə tikinti-inşaat işləri davam edir

(Əvvəli 1-ci səhifədə)

Ölkə başçısının qeyd etdiyi kimi, hazırda Silahlı Qüvvələrimizin bütün növ təminatına ciddi diqqət yetirilir, maddi-texniki təchizatla yanaşı, hərbi hissələrin yenidən qurulmasına da önəm verilir. Həmçinin hərbi qulluqçulara göstərilən tibb xidmətinin səviyyəsini yüksəltmək üçün müasir hərbi səhiyyə müəssisələri tikilir və ən yeni tibbi avadanlıqlarla təmin olunur.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin yaydığı məlumatda da göstərildiyi kimi, nazirliyin rəhbərliyi bu günlərdə cəbhə bölgəsində olarkən Gəncə şəhərində yeni inşa edilən hərbi hospitaldakı müalicə-diaqnostika, qərargah korpusu, eləcə də digər inzibati binalar və qurğularda gedən tikinti işləri ilə maraqlanıb.

Azərbaycanda müasir hərbi səhiyyənin inkişafına göstərilən yüksək dövlət qayğısından danışan Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev görülən işlər haqqında Müdafiə nazirinə məlumat verib.

Mobil səhra hospitalının yeni açılan terapiya bölməsində yaradılan şəraitlə tanış olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov müvafiq tövsiyə və tapşırıqlarını verib.

Məlumatda həmçinin qeyd olunur ki, Müdafiə naziri cəbhəboyu zonada yerləşən tank hərbi hissəsinin birində şəxsi heyətlə görüşüb. Burada döyüş texnikası, trenajor mərkəzi və avtomobil texnikalarına baxış keçirən nazir şəxsi heyətlə görüşlərində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ordu quruculuğuna göstərilən diqqət və qayğının nəticəsi olaraq son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb. Müdafiə naziri bildirib ki, dövlət rəhbərliyinin yüksək qayğısına cavab olaraq ordunun şəxsi heyəti bütün sahələrdə hazırlığını daha da artırır və qarşıda dayanan mühüm vəzifənin yerinə yetirilməsinə hazırdır. O, əminlik hissi ilə qeyd edib ki, Azərbaycan Ordusunun şəxsi heyəti dövlətin və xalqın inamını doğrultmaq üçün üzərinə düşən tapşırıqları vaxtında və uğurla icra etməyə qadirdir.





# “Əsgər olaraq qürurluyam!”

*Cəbhə bölgəsində döyüş növbəsi aparan hərbi kollektiv üçün yaradılmış xidməti şərait yüksək səviyyədədir. Dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuş Silahlı Qüvvələrimizin bu hərbi hissəsində 2016-cı ilin martında yeni və müasir hərbi şəhərcik inşa edilərək şəxsi heyətin istifadəsinə verilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti şəhərciyin açılışında iştirak etmiş, zabit, gizir və əsgərlərimiz üçün orada yaradılmış şəraitlə tanış olmuşdu.*



- Xidmət şəraitinin yaxşılaşdırılması dövlətin ordusuna qayğısı deməkdir, - zabit Şahin Qəhrəmanov bizimlə söhbətində dedi. - Şəxsi heyət üçün təmas bölgəsində yaradılmış imkan həvəslə xidmət etməyə sövq edir. Yaxşı şəraitdə xidmət etmək xoş və məsuliyyətlidir. Ən önəmlisi odur ki, bölmələrimiz düşmənlə üzbəüz mövqelərdə ayıq-sayıq döyüş növbəsi aparır və daşıdıqları vəzifənin məsuliyyətini dərk edirlər.

Səhər yerbəyerindən sonra döyüş növbəsi aparan əsgərlərimizin görüşünə tələsirik.

Bu yerlərə ilk səfərimiz zamanı yüksəkliklər qatı dumana bürünmüşdü və qarşıdakı düşmən mövqeləri görünməz olmuşdu. İndi isə qızmar yay günləri idi, günəş hər yanı sanki yandırıb saraltmışdı. Hava isti olsa da, təpəliklərdə asta-asta əsən meh uzaq dağların nəfəsini hiss etdirir, sərinlik gətirirdi.



Toz-torpaqlı yollar bir-birinə dolaşıb təpələrin arxasında gözdən itirdi. Adama elə gəlir ki, labirint kimi bir-birini eninəuzununa kəsib keçən bu yolların dolaşığını açmaq müşkül məsələdir. Ancaq bu yerləri, görünür, beş barmağı kimi tanıdığından bizi ön mövqelərə aparan kamuflyajlı sürücü hara gedəcəyimizi yaxşı bilirdi.

Bölmənin qarşısında bizi zabit Vüsal Bayramov qarşıladı. Onu əvvəllər də görmüş, artıq tanış olmuşduq.

Əyinlərində zirehli gödəkçə, başlarında dəbilqə yaraqlı-yasaqlı bir neçə əsgər də sırada dayanmışdı. Məlum oldu ki, onlar postlardakı silahdaşlarını dəyişməyə getməlidirlər.

- Hazırda təmas xəttində nisbi sakitlikdir, - mayor Bayramov deyir. - Aprel döyüşlərindən sonra atəşkəsə nisbətən əməl edilir. Ancaq hərdən düşmən mövqelərimizi atəşə tutur. Ötən gecə bizim bölmənin döyüş postları qarşı tərəfdən atəşə tutulub. Bu barədə komandanlığa məlumat verilib və lazımi tədbir görülüb.

Ön xətdə olarkən eşitdim ki, düşmən tərəfdən aprel döyüşləri vaxtı bu ərazilər də müxtəlif silahlardan güclü atəşə məruz qalmışdı. Ancaq döyüşçülərimizin peşəkarlığı, mövqelərin mühəndis-istehkam baxımından möhkəmliyi itkilərin qarşısını almışdı.

- Bu gün şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, döyüş ruhu yüksək səviyyədədir, - zabit V.Bayramov əlavə edir. - Aprel döyüşləri zamanı ordumuzun bölmələri düşmənə sarsıdıcı zərbələr endirdi, yüksəklikləri ələ keçirdi. Bu bizim döyüşçüləri daha da ruhlandırdı. Hazırda şəxsi heyət işğal altındakı torpaqları azad etmək üçün döyüşə hazırdır. Eyni zamanda bu mövqelərə ermənilər basqın təşkil ediblərmiş. Ermənilərin diversiya qrupu bizim mövqelərə soxulmağa cəhd etmişdi. Gecə vaxtı, daha doğrusu, səhərə yaxın müşahidə cihazları vasitəsilə düşmənin hərəkəti bəlli oldu. Ancaq döyüşçülərimizin sayıqlığı nəticəsində onların planları pozuldu.

Biz posta gələndə növbədə əsgər Orxan Feyzullayev dayanmışdı. Ona yaxınlaşanda gümrah səslə postdakı vəziyyət barədə komandirinə məruzə etdi:

- Cənab mayor, döyüş növbəsində olduğum zaman heç bir hadisə baş verməyib. Məruzə etdi əsgər Feyzullayev.

Orxan gecə növbəsində də keşikdə dayanıb. Gecəgörmə cihazları ilə düşmən mövqelərinin müşahidəsini aparıblar. Erməni mövqelərini bir an belə diqqətdən kənarda qoymayıblar.

Əsgərlə söhbətə başlayanda özünü məğrur təqdim etməsi, gümrah səslə dediyi sözlər məndə olduqca xoş duyğular oyatdı. O dedi:

- Vətənin keşiyində duran bir əsgər kimi qürurluyam!

Bu günlərdə o, yəqin ki, artıq ordu sıralarından tərxis ediləcək evə qayıdıb. Xidməti barədə sual verəndə: - Hamı kimi xidmət etmişəm. Hər şey əsgərliyim dövründə yaxşı olub. Burada ölkəmizin müxtəlif yerlərindən gəlmiş əsgərlərlə birlikdə xidmət etmişik, Vətənimizi düşməndən qorumuşuq, - dedi.

- Nümunəvi xidmətinə görə əsgər Orxan Feyzullayev komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb və xidmət vərəqində bunlar qeyd edilib, - taqım komandirinin müavini gizir Saleh Xəlilov deyir.

Vətəni qorumaq, Silahlı Qüvvələr sırasında xidmət etmək əsl kişi işidir. Bəs Orxan xidməti barədə nə düşünür? Orduda əsgəri borcunu yerinə yetirmək ona nə verdi? Bu sualları Orxana verdikdə o dedi:

- Orduda xidmət etmək şərəflidir. Bu gün bu postda mən dayanıram, Vətənimizi əsgər yoldaşlarımla qoruyuram. Mən tərxis olunandan sonra başqa əsgərlər burada döyüş növbəsində dayanacaq. Bütün Azərbaycanı qoruyacaqlar. Bu borc hər bir gəncin müqəddəs vəzifəsidir.

Əsgər Orxan Feyzullayev Goranboy rayonundan hərbi xidmətə çağırılıb. Orxanın atası maşın ustasıdır, alnının təri ilə ailəsini dolandıran bir zəhmət adamıdır. Belə ailədə böyüyən Orxanın özü də ordu sıralarına çağırılana qədər atasının yanında bu peşənin incəliklərini öyrənməyə çalışıb.

Onlar ailədə üç qardaşdırlar. Söhbət zamanı məlum oldu ki, onun əkiz qardaşı Sərxan da burada xidmət edir. Əkiz qardaşların digərini başqa postda tapdıq.

O da qardaşı kimi nümunəvi xidmətilə komandirlərinin hörmətini qazanıb. Sərxan əsgərliyini başa vurduqdan sonra orduda hərbi xidmətini davam etdirmək niyyətindədir. O, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordumuzda qalıb xidmət etmək arzusundadır.



- Xidmət dövründə hiss etdim ki, Vətənə xidmət etməkdən müqəddəs və şərəfli bir vəzifə yoxdur, - Sərxan Feyzullayev deyir. - Ən yaxşı oğullar burada müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənimizə qulluq edirlər. Mən də onlardan biri kimi hərbçi olmaq istəyirəm. Hesab edirəm ki, ən yaxşı peşə Vətəni qorumaqdır.

Əsgər Kamil Vahidov da ordu sıralarında xidmətini başa vurmağa hazırlaşırdı. Onunla səngərlərdə qarşılaşdıq. Döyüş postunun qarşısında keşik çəkirdi. O, gecə növbəsində də iştirak etmişdi. Postda sakitlik olmuşdu.

Əslən Şamaxı rayonundan olan əsgər Vahidov zəhmətkeş ailədə böyüyüb, onlar iki qardaş, iki bacıdırlar. Ordu sıralarına çağırılmazdan əvvəl xarrat yanında köməkçi işləyib.

- Ordumuzda xidmət mənə çox şey verib, - deyir. - Hələ orduya gələnə qədər deyirdilər ki, əsgərlik həyat məktəbidir. Ancaq o vaxt bu mənə çatmırdı. İndi başa düşürəm ki, doğrudan da, əsgərlik insanda məsuliyyət, ciddilik, dözüm tərbiyə edir.

Burada onunla Şəmkirdən, Ucardan, Bakıdan... çağırılmış əsgərlər xidmət edirlər. Onlar bir ailənin üzvləri kimi mehribanlaşıblar. Həm də düşmən qabağında onların hər biri bir qardaş əvəzidir.

Ordudan tərxis edildikdən sonra söz veriblər ki, bir-birilərini axtaracaq, dostluqlarını davam etdirəcəklər.

- Burada hər şeydən öncə və vacib olanı döyüş növbətçiliyinin təşkilidir. Biz əli silahlı və hiyləgər düşmənlə üzbəüz mövqelərdə keşik çəkirik. Ona görə sayıqlığı bir an belə itirmək olmaz. Bunu adi əsgər də, gizir də, zabit də yaxşı başa düşür. Ona görə birinci vəzifəmiz döyüş növbətçiliyini düzgün təşkil etməkdir. Bu işi nizamnamələrin və təlimatların tələblərinə maksimum uyğun qurmağa çalışmışıq.

Burada da şəxsi heyətin məişət şəraitinə daha çox diqqət yetirilir. Bu baxımdan şəxsi heyətin qidalanması, istirahəti necə təşkil edilib?

- Döyüşçülərin gün ərzində istirahəti düzgün təşkil olunur, - gizir Saleh Xəlilov deyir. - Qrafikə uyğun olaraq hər bir əsgər 8 saat yatıb dincəlir. Onların qidalanması da yüksək səviyyədə təşkil edilib və döyüşçülərimiz yüksək kalorili yeməklə təmin edilirlər. Əsgərlərin yuyunması və təmizliyi də daim komandanlığın diqqət mərkəzindədir. Bütün bölmələrdə hamamlar var və qrafikə uyğun olaraq əsgərlərin yuyunması ilə bağlı da heç bir problem yoxdur. Vaxtlı-vaxtında su gətirilir, ön xətdə xidmət edən zabit, gizir və əsgərlərin ehtiyacları tam ödənilir.

Asudə vaxtlarında qəzet və jurnallarla tanış olur, televizora baxır, dama, şahmat oynayırlar.

Zabit Bayramovdan nümunəvi xidmətilə seçilən hərbi qulluqçuları soruşduqda bütün şəxsi heyətin öz vəzifə borclarına məsuliyyətlə yanaşdığını, döyüş postlarında ayıq-sayıq növbə çəkdiyini, xidmətində nümunəvi olduğunu qeyd etdi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Ordunun təminatı daim nəzarətdədir



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Nazirliyin Maddi-Texniki Təminat Baş İdarəsinin - Arxa Cəbhə İdarəsində müvafiq xidmət rəisləri ilə ötən yarım ilin yekunlarına həsr olunmuş toplantı keçirilib.

Toplantıda çıxış edən idarə rəisi polkovnik Münasib Babayev Ali Baş Komandanın ordunun təminatını daim nəzarətdə saxladığını, dövlətimizin diqqət və qayğısı sayəsində Müdafiə Nazirliyi rəhbərliyinin həyata keçirdiyi tədbirlər nəticəsində bu istiqamətdə qısa müddətdə böyük uğurların əldə olunduğunu iştirakçıların diqqətinə çatdırıb.

Hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən verilən tapşırıqların yerinə yetirildiyi və bu istiqamətdə işlərin davam etdirildiyi diqqətə çatdırılıb.



Daha sonra ötən altı ay ərzində arxa cəbhə xidməti üzrə görülən işlər barədə hesabatlar dinlənilib və qarşıda duran vəzifələr ətraflı müzakirə edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Kadr orqanı işçilərinin təlim-metodiki toplantısı

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində birlik, birləşmə, hərbi hissə, idarə və müəssisələrin kadrlar üzrə rəisləri ilə ötən altı ayın yekunlarına həsr olunmuş toplantı keçirilib.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə kadr orqanı Müdafiə Nazirliyində mühüm xidmət sahələrindən biri olduğu qeyd edilərək ordu rəhbərliyi tərəfindən bu sahəyə ciddi diqqət yetirildiyi xüsusi vurğulanıb.

Bildirilib ki, Müdafiə naziri Silahlı Qüvvələrdə kadrlar üzrə aparılan işi yüksək qiymətləndirir. Tədbirdə komandanlıq tərəfindən qarşıya qoyulan bütün vəzifələrin bundan sonra da layiqincə yerinə yetiriləcəyi ifadə edilib.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***28 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 12 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***29 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Voskevan, Şavarşavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Quşçu Ayrım, Kəmərli kəndlərində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə və Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu və Əlibəyli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Psixoloqların toplantısı təşkil edilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi tərəfindən Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi hissə və birləşmələrin psixoloqları, eləcə də şəxsi heyətlə iş üzrə zabitlərin iştirakı ilə Silahlı Qüvvələrdə psixoloji işin təşkilinə dair təlim-metodiki toplantı keçirilib.

Toplantıda "Silahlı Qüvvələrdə psixoloji işin təşkili və aparılması", "Kollektivin psixoloji durumuna təsir edən amillər", "Döyüşdə və döyüşdən sonra hərbi qulluqçuların psixoloji durumu" və bir sıra digər mövzular üzrə mühazirələr dinlənilib.

Toplantı iştirakçıları tərəfindən aprel döyüşlərinin şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəlməsində rolu, hərbi qulluqçuların psixoloji hazırlığı üzrə tələb və tövsiyələr, eləcə də həyata keçiriləcək fəaliyyətlər barədə müzakirələr aparılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Azərbaycanda əsgərlərin hərbi xidmətə artan həvəsi Ali Baş Komandanın ordumuza qayğısının nəticəsidir”

*Azərbaycan Respublikası Müdafiə nazirinin cəbhə bölgəsində yerləşən hərbi hissələrə səfəri heç də təsadüfi deyil. Nazir mütəmadi olaraq, cəbhəboyu zonada yerləşən hərbi hissələrə baş çəkir, əməliyyat şəraiti, bölmələrimizin döyüş qabiliyyəti və şəxsi heyətin döyüş hazırlığı səviyyəsi ilə yaxından maraqlanır.*

Bu barədə məlumat verən ehtiyatda olan general-leytenant, keçmiş birlik komandiri Yaşar Aydəmirov AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirib ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı öz mövqeyində qətiyyətlidir, israrlıdır və onu dəyişməz hesab edir. Aprel hadisələri bir daha sübut etdi ki, əgər Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll olunmazsa, Azərbaycan problemi hərb yolu ilə həll etməyə qadirdir.

"Sirr deyil ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuza göstərdiyi diqqət nəticəsində ölkəmiz müdafiə qüdrətini artırır, Silahlı Qüvvələrin arsenalını yeni, müasir tələblərə cavab verən silah və hərbi texnika ilə gücləndirir. Aprel hadisələrindən sonra bu proses daha geniş miqyasda həyata keçirilir. Son üç ay ərzində artıq ordumuzun silahlanmasına olduqca güclü və ən mürəkkəb hərbi əməliyyatları həyata keçirə biləcək silah və hərbi texnika qəbul edilib. Hazırda ordumuz istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə tam hazırdır. Bu, təkcə son zamanlar alınmış silahlar hesabına deyil, eyni zamanda Silahlı Qüvvələrimizin şəxsi heyətinin aprel hadisələrindən sonrakı döyüş ruhunun və mənəvi-psixoloji durumunun olduqca yüksək olması ilə mümkündür. Belə ki, Müdafiə nazirinin cəbhə bölgəsində yerləşən hərbi hissələrə səfəri zamanı həmin hərbi hissələrdə xidmət edən və xidmət müddəti başa çatmaqda olan bir çox müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları xidmətlərini davam etdirmələri və Ali Baş Komandan İlham Əliyevin əmri ilə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda aparılacaq döyüşlərdə iştirak etmək arzusunda olduqları barədə müraciət ediblər. Əsgərlərimizdə hərbi xidmətə olan bu istək və rəğbət Silahlı Qüvvələrimizin Ali Baş Komandanının ordumuza göstərdiyi diqqət və qayğısı nəticəsində mümkün olub".

# “Milli mətbəximizə üstünlük veririk”

*Hər dəfə cəbhə bölgəsində yerləşən hərbi hissələrin əsgər yeməkxanalarında çalışan ağ xalatlı qadınları görəndə düşünürəm ki, həqiqətən də, bütün bunlar son illərdə ordumuzda aparılan uğurlu islahatların nəticəsi, eyni zamanda cəmiyyətdə ordumuzun nüfuzunun daha da artmasına bariz nümunədir.*



İki il öncə Silahlı Qüvvələr Günü ərəfəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov AZƏRTAC-a müsahibəsində qeyd etmişdi ki, ordu ona aid olmayan əlavə funksiyalardan - müxtəlif təsərrüfat, mühafizə və qulluqetmə tapşırıqlarından mərhələlərlə azad edilir. "Bir sıra xidmət, qulluqetmə vəzifələrinin icrasına mülki şəxslərin cəlb olunması həyata keçirilmişdir və gələcəkdə də bu məsələlərin mərhələlərlə həlli planlaşdırılır. Qısa müddətdə xeyli sayda mülki şəxs Silahlı Qüvvələrə qulluğa qəbul olunmuşdur". Bəli, qısa müddət ərzində ordu rəhbərliyinin bu tövsiyələri birmənalı şəkildə hərbi hissələrdə yerinə yetirildi və döyüş hazırlığına ciddi diqqət göstərildi. Əvvəlki illərdən fərqli olaraq bu gün əsgərlərimiz təsərrüfat işlərindən azad olunaraq, təlim meydanlarında sırf döyüş hazırlığı ilə məşğuldurlar.

Ezamiyyətdə olduğum "N" hərbi hissəsində də bir çox məişət-təsərrüfat işlərinə yerli sakinlərdən ibarət mülki şəxslər cəlb edilib. Qeyd etmək lazımdır ki, əsgərin xidmət dövründə keyfiyyətli qida ilə təminatı bu gün orduda önəm kəsb edən amillərdəndir. Şəxsi heyətə keyfiyyətli yeməklərin hazırlanması üçün peşəkar mülki aşpazlar işə qəbul olunublar. Onların hazırladıqları dadlı, təamlı milli xörəklərin xoş ətri mətbəxdən ətrafa yayılır. Beləcə, burada da qadın əməyinin, ana zəhmətinin önəmliliyini və müqəddəsliyini hiss edirsən. Yeməkxanada çalışan aşpaz xanımlarımızın əsgər və zabitlərimiz üçün necə böyük həvəslə, ürəklə qaynar sobanın yanında müxtəlif çeşiddə yeməklər hazırladıqlarının dəfələrlə şahidi olmuşam. Hərbi hissələrdə ənənəvi olaraq keçirilən "Açıq qapı" günlərində daha çox imkan yaranır ki, valideynlər, ictimaiyyət nümayəndələri müasir əsgər yeməkxanalarının şəraiti ilə yaxından tanış olsunlar.

Biz əsgər yeməkxanasına daxil olanda artıq şəxsi heyət səhər yeməyini yenicə başa vurmuşdu. Yeməkxana xidmətçiləri təmizlik işləri ilə məşğul idilər. Yeməkxana rəisi gizir İltifat Şabanov bildirir ki, mətbəxdə gərgin iş gedir. "Bu gün menyuda nəzərdə tutulan yeməklər - borş, küftə, plov, toyuq qızartması, salatlardan isə çuğundur salatı hazırlanacaq. Onu da deməliyəm ki, bayram günlərində şəxsi heyətə müxtəlif çeşiddə zəngin milli mətbəximizdən xörəklər bişirilir."



Əslən Lerik rayonundan olan gizir İ.Şabanov üç ildir ki, bu hərbi hissədə xidmət edir. Xidmət etdiyi illər ərzində işinə daim məsuliyyətlə yanaşaraq, əsas diqqətini şəxsi heyətin keyfiyyətli qidalanmasına yönəldib.

Yeməkxananın baş aşpazı Ruqiyyə Tağıyeva söhbətimizdə bildirdi ki, Vətənimizin keşiyində dayanan əsgər və zabitlərə dadlı, təamlı yeməklər bişirir, milli mətbəximizə üstünlük verirlik. "Əsasən çalışırıq ki, hazırladığımız hər bir xörək onların ürəyincə olsun. Gördüyünüz kimi, yeməkxanamız geniş, işıqlı müasir yeməxanadır. İllər öncə nə vaxtsa belə bir şəraitin olacağına inanmırdıq. Sağ olsun, Prezidentimiz İlham Əliyev, ordumuza, əsgərlərimizə, zabitlərimizə böyük diqqət göstərir, qayğısını onlardan əsirgəmir."



Peşəkar aşpazlardan Rahilə Məmmədova, Şahnaz Məmmədova və yeməkxana xidmətçiləri Nazilə Abdullayeva, Natalya Mirzəməmmədova, Güllü Süleymanova, Naibə Əliyeva öz üzərlərinə düşən vəzifələri məsuliyyət hissi ilə yerinə yetirirlər. Onlar Vətənin gənc müdafiəçilərinə qulluq göstərməkdən qürur duyur, bunu özlərinə mənəvi borc bilirlər.

Əsgərlərimizə çeşidli milli yeməklər bişirən baş aşpaz Ülkər Məmmədova isə söhbətində bildirdi ki, xörəklərin dadlı alınmasında keyfiyyətli ərzaqlar əsas rol oynayır. "Təzə qida məhsullarından hazırlanan xörəkləri şəxsi heyət iştahla yeyir. Buna görə də daim təzə və keyfiyyətli qida məhsulları ilə təmin olunuruq."

Aşpaz xanımlar bizimlə söhbətlərindən sonra şəxsi heyətə nahar hazırlamaq üçün mətbəxə keçirlər. Artıq onlar hansı milli xörəkləri bişirəcəklərini də əvvəlcədən müəyyənləşdiriblər...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**

## Böyük Britaniya və belçikalı deputatlar Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandırılıb

Böyük Britaniya Parlamentinin üzvü Lord Northbookla görüşdə Milli Məclisin deputatı Qənirə Paşayeva Ermənistanın işğalçılıq siyasəti nəticəsində doğma evlərindən qovulan 1 milyon azərbaycanlının məcburi köçkün həyatı yaşamağa məcbur olması, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan torpaqlarında törətdiyi vandalizm aktları barədə məlumat verib.

AZƏRTAC xəbər verir ki, görüşdən məmnunluğunu ifadə edən deputat Qənirə Paşayeva Azərbaycanın Böyük Britaniya ilə bütün istiqamətlərdə əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayıb.

Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını deyən L.Northbook iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib. O, yaxın zamanlarda Azərbaycana səfər etmək niyyətində olduğunu söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılıb.

Milli Məclisin deputatı Qənirə Paşayeva Belçika Parlamentinin türk mənşəli deputatı Güler Turanla görüşdə Xocalı soyqırımından danışıb. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həmkarına geniş məlumat verib.

Güler Turan öz növbəsində bu istiqamətdə Azərbaycana əlindən gələn dəstəyi göstərməkdə davam edəcəyini vurğulayıb.

Q.Paşayeva belçikalı həmkarını Azərbaycana dəvət edib. Bu günə qədər Bakıda olmadığını söyləyən G.Turan ölkəmizə gələrək Azərbaycanla tanışlıqdan məmnun olacağını bildirib.

Sonda Qənirə Paşayeva Belçika Parlamentinin üzvünə Qarabağ həqiqətləri ilə bağlı kitablar, materiallar və filmlərin diskini hədiyyə edib.

## Cəbhə bölgəsində əhali dövlət sirlərinin qorunması ilə bağlı maarifləndirilir

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və rayon icra hakimiyyətlərinin dəstəyi ilə "Dövlət sirlərinin qorunması və dezinformasiyaların qarşısının alınması" adlı layihə həyata keçirir.

AZƏRTAC xəbər verir ki, layihə çərçivəsində Ağdam rayonunun Quzanlı qəsəbəsində ictimaiyyət nümayəndələri və gənclərlə görüş keçirilib.

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdam rayon şöbəsinin rəis müavini Elxan Feyziyev, Ağdam rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Mehman Mustafayev çıxış edərək "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyət, cəbhəboyu zonada yerləşən yaşayış məntəqələrinin sakinləri arasında qoşunların dislokasiyası, hərbi-siyasi və əməliyyat şəraiti, hərbi sahədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilən digər məlumatların yayılmasının yolverilməzliyi barədə danışıblar.

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# Ordumuza güvənimiz böyükdür

**Xalq, dövlət orduya güvənir. Ordu da xalqın, dövlətin dəstəyini daim hiss edir. Dövlətimizin orduya olan diqqət və qayğısı əsgər və zabitlərimizin döyüş ruhunu daha da artırır. Hərbi hissələrimizdən birində keçirilən "Açıq qapı" günündə iştirak edərkən tədbirin xalq ilə ordu arasında bir növ körpü rolunu oynadığının canlı şahidi oldum. Burada iştirak edən hər kəsin çöhrəsində təbəssüm, razılıq ifadəsi oxunurdu.**

Bayaqdan övladının boybuxununa baxmaqdan doymayan əsgər valideynlərinə yaxınlaşıram. Öyrənirəm ki, Tərtər rayonundan gəliblər. Ədalət İbrahimov oğlunun Vətən qarşısında müqəddəs borcunu verməsindən çox qürurludur. Övladının əsgər olması ilə fəxr edən ata söhbət əsnasında bildirdi ki, oğlu Aqif Rəhmanzadə altı aydır Vətənə xidmət edir.

- Hərbi hissə ilə ilk tanışlığımız oğlumun hərbi and içdiyi gün olub, - deyir əsgər atası. - Gündəlik məişət şəraitinin nə qədər yüksək olmasını o vaxt da öz gözlərimizlə görmüşdük. "Açıq qapı" gününün keçirilməsini eşitdikdə, həm övladımızla görüşməyə, həm də bu tədbirdə iştirak etməyə qərar verdik. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin ordumuzun inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir ki, övladlarımız üçün yaradılan şəraiti gördükdə ürəyimiz dağa döndü. Doğrudan da, son illər Silahlı Qüvvələrimizdə böyük islahatlar aparılıb. Bu gün bizim güclü, müasir texnikalarla təchiz edilmiş qüdrətli ordumuz var. Kiçik oğlum Vasif 11-ci sinifdə oxuyur. Qardaşının hərbi andiçmə mərasimində iştirakından sonra o da əsgər gedəcəyi günü həsrətlə gözləyir. Biz öz ordumuza inanırıq və övladlarımızı çox böyük güvən, inam hissi ilə hərbi xidmətə yola salırıq.

Əsgərin anası Ləyaqət xanım da söhbətində övladının xidmətindən və hərbi hissənin məişət şəraitindən razılıqla söz açdı. Bildirdi ki, əsgərlərin şəraitinə baxanda adamın ürəyi açılır. "Yataq yerlərini, hamam-camaşırxana və yeməkxananı gəzib gördüm. Hər tərəf təmiz və səliqəli idi. Xörəkləri qadın aşpazlar hazırlayırdılar. Mən bir əsgər anası olaraq Müdafiə naziri-miz general-polkovnik Zakir Həsənova minnətdarlığımı bildirirəm."

- Vətəni qorumaq ən ümdə borcumuzdur, - deyir əsgərin əmisi Mahir İbrahimov. - Dövlətimiz peşəkar, qüdrətli orduya malikdir. Bu gün ordumuzun qarşısında çox mühüm vəzifələr durur. Əsas vəzifə isə torpaqlarımızın işğaldan azad edilməsidir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün hər cür imkanımız var. Aprel döyüşləri bunu bir daha təsdiq etdi. Hərbçilərimizin bu haqq savaşında qalib gələcəyinə inanırıq.

Onlar hərbi hissə ilə tanışlıqdan, əsgərlərimizin belə bir şəraitdə qulluq etməsindən çox razı qaldıqlarını bildirdilər.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

**Vətənin qoruyucusu kimi ordu şərəfli bir vəzifəni həyata keçirir. Bu vəzifənin müqəddəsliyini dərk edən hər kəs daim ordusuna inanıb, güvənib. Ordu xalqın, xalq ordunun dayağı olub.**




Ağdam rayonunda ezamiyyətdə olarkən kənddəki evlərdə düşmən mərmilərinin izlərini göstərən zabitin sözləri yadımdan çıxmır:

- Bu evləri düşmənin mərmiləri dağıdıb. Dəmir hasarlarda, evlərin divarlarında mərmi nişanələri hələ qalmaqdadı. Düşmən kənd əhalisini nişan alırdı, lakin, əhalidən heç kim kəndi tərk etmədi. Ordumuza güvənən yerli əhali düşməndən qorxmadı. Ordunu güvənc yeri bildilər. Onlar bizimlə birlikdə döyüşlərə atılmaq istəyirdilər...

Müdafiə nazirinin əmri ilə hərbi hissələrdə "Açıq qapı" günlərinin keçirilməsi xalqla ordunun birliyinin möhkəmlənməsində böyük rol oynayır. "Açıq qapı" günlərində əsgər valideynləri, ictimaiyyətin nümayəndələri hərbi hissələrdə əsgərlərin məişət şəraiti ilə yaxından tanış olurlar. Onlarla bir süfrədə əyləşib yemək yeyirlər. Bu tədbirlərin birində iştirak edən bir neçə valideynin təəssüratlarını diqqətinizə çatdırmaq istəyirəm.

**Əsgər babası Hümbət Sahilov:**

- Nəvəmin yanına gəlmişəm, bu hərbi hissədə hər cür şərait yaradılıb. Ərzaq-geyim təminatı yüksək səviyyədədir. Müasir yeməkxana və rahat yataq dəstləri ilə tanış oldum. İnanıram ki, bacarıqlı komandirlərin nəzarətində nəvəm hazırlıqlı döyüşçü kimi yetişəcək.

**Əsgər anası Ayişə Ömərova (Zaqatala):**

- Qürur duyuram ki, oğlum Azərbaycan əsgəridir, torpaqlarımızı düşməndən qoruyur. Hərbi hissədə əsgər balalarımız üçün yaradılan şəraitlə tanış olduq. Burada övladlarımıza yüksək qayğı göstərilir.

**Əsgər qardaşı Samir Səlimov (Ağcabədi):**

- Qürurluyam ki, məndən sonra qardaşım da əsgərdir. Şərəfli xidmət yolu keçir. Nümayiş etdirilən yay-qış geyim formaları, qida məhsulları, yataq ləvazimatları orduma za dövlətin diqqət və qayğısını sübut edir.

Ordu ilə cəmiyyətin sıx əlaqəsi başqa şəkildə də davam etdirilir. Dövlət və özəl müəssisələrin işçiləri vaxtaşırı döyüş bölgələrində əsgərlərlə görüşür, bayram tədbirlərində iştirak edirlər.

Gənclərlə sıx əlaqədə olan Elvin Məmmədov (Sumqayıt şəhər Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri) deyir:

- Bu gün hər bir gəncimiz Azərbaycan əsgəri olmağın qürurunu yaşayır, hərbi formanı geyməyin şərəfli olduğunu bilir. Biz gənclər ordumuza sonsuz güvənirik. Ordumuz bizim qürurumuzdur...

**Sevinc Salehqızı (tələbə)**:

- Çox sevincliyəm ki, bu gün əsgərlərimizlə xidmət yerində görüşmüşəm. Mən də hərbçilərimizlə fəxr edirəm. Biz tələbələr də Azərbaycan əsgərinin gücünə inanırıq.

**Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

Düşüncələr



# Qartal uçuşu

Sərin-sərin əsən yel hara tələsir bilinmir...

İri qara daşın köksünə söykənən cığırın sağından-solundan boy göstərən seyrək otlar titrəşir. Bu, qorxu-hürkü deyil, mehrdi, ülfətdi. Bu ucalıqda otlarla yelin belə ünsiyyətinə baxdıqca baxırsan, nə göz doyur, nə də könül...

Əsgərlərdən biri qədərsiz istəklərlə əyilib otlara sığal çəkir. Başqa bir əsgər də yaxınlaşır ona. İkilikdə yelin titrətdiyi otlara baxırlar...

Göy üzündə bir qartal görünür...

Göy üzündə süzən qartalın qanadları yeri kölgələndirir. Göy yerə qılıqçıdı, yer göyə. Daşlara mətərislənmiş əsgərlər qartalın könülaçan uçuşuna valeh olub elə bil; elə bil bu uçuşu çağırış bilir: "Qartal uzaqlarda qaralan daşlara sayğı umur bizlərdən", - əsgərlərin düşüncələri təlatümə gəlir. "O dağın o üzü Kəlbəcərdi. Lələtəpənin sinəsindən sürüşən yellər buracan çatır. Kəlbəcərə də çatırmı görəsən?" - əsgər mətərisləndiyi daşın üstündən qarşı tərəfə boylanır...

Neçə illər əvvəl Ağdərədəydik. Yusifin kövrəldiyini sezmək çətin deyildi. Heç nə soruşmadım; düşüncələriylə baş-başa qalırdı, az sonra qəlbindən keçənləri aramla danışırdı.

- Bayaq bir qartal göründü. Əsgərlərimizin başı üstə bir neçə dövrə vurub uzaqlaşdı. Qəribsəyən, ağrılara tuş gələn torpaqlarımızın harayını çatdırırdı bizə...

O qartalın uçuşu, Yusifin dedikləri əsgərlərimizi bir boy da dikəltmişdi, qartalın uçuşu, bu uçuşun qətiyyəti əsgərlərimizin baxışlarına hopmuşdu. O baxışlar əmr istəyirdi, o baxışların təmənnası döyüşüydü, qələbəyə təşnəliyiydi...

Üç gündən sonra Ağdərə ermənisizləşdirilmişdi...

Tərtərdə hərbi hissədə qanadı yaralanmış qartalı müalicə etdilər. Sağalandan sonra buraxmışdılar onu. Qartal göy üzündə xeyli uçmuşdu. Bu, minnətdarlıq uçuşuydu. Qartalların torpaqlarımızın yaralarını da sağaldacaq əsgərlərimizin başı üstə belə uçuşları olacaq. Həm də yaxın vaxtlarda. Könlüm (könüllərimiz) o günün həsrətindədi...

Murovdağda qanadları yeri kölgələndirən qartalın uçuşunu gözlərimə, gözlərimdən könlümə köçürməkdəykən başqa bir qartal görünür. O da eyni uçuşla bizə sarı yaxınlaşır. Torpağı qoruyanları - qartal naxışlıları Günəşin şüalarında qoruyur...

Beş-altı addım o yanda bir çiçək açıbmış, bayaqdan bəri görməmişəm. Ləçəyində şeh alışan dağ çiçəyini dərməyə əlim gəlmir...

O çiçəyə aparan cığırın sağında qışdı, solunda yazdı. Qışla yazın arasında dayanıb göy üzünə boylanıram. Bayaqkı qartalların qanadları göy üzünə sığal çəkir. Sığal çəkə-çəkə Azərbaycan əsgərini salama gəlib - düşünürəm. Bu ecazkar uçuş salamlaşmadı...

Əsgərlər könül xoşluğuyla göy üzünə baxırlar...

Hava elə gözəldi ki!..

**Rəşid HÜSEYNOV,
əməkdar jurnalist**

# Fransız dili kursunu bitirmiş bir qrup zabitə sertifikatlar təqdim edilib

Müdafiə nazirinin müvafiq əmrinə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası nəzdində fəaliyyət göstərən Xarici dil və Tərəfdaşlıq Mərkəzində fransız dili kurslarının növbəti buraxılışı olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyulun 27-də Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Fransa Respublikasının ölkəmizdəki səfirliyinin nümayəndələrinin iştirakı ilə kursun bitməsi ilə əlaqədar tədbir keçirilib. Tədbirin sonunda kurs iştirakçılarına sertifikatlar təqdim olunub.

Qeyd edək ki, 2006-cı ildən başlayaraq Fransa tərəfinin təşəbbüsü ilə Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün fransız dili kursları təşkil edilir və növbəti illərdə də kursların keçirilməsi planlaşdırılır.

# Milli Qəhrəman haqqında sənədli filmin təqdimatı

***"N" hərbi hissəsində Azərbaycanın Milli Qəhrəmanı, şəhid batalyon komandiri, məşhur pəhləvan mayor Əliyar Əliyev haqqında "Yaddaş" studiyasında çəkilmiş "Pəhləvan komandir" sənədli filminin təqdimatı olub.***




AZƏRTAC xəbər verir ki, şəhid Əliyar Əliyevin həyat və döyüş yoluna həsr edilmiş "Dağlar oğlu" kitabının müəllifi, yazıçı-publisist Hacı Nərimanoğlu çıxış edərək igid komandir, məşqçi və güləşçi, idman ustası, Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyev haqqında xatirələrini danışıb.

Filmin nümayişindən sonra çıxış edən əsgər və zabitlər Əliyar Əliyev kimi qəhrəmanları özlərinə örnək saydıqlarını, belə tədbirlərin hərbi vətənpərvərlik, döyüş, mənəvi ruhun gücləndirilməsində mühüm rolundan danışıblar.

Hərbi hissə komandanlığı tədbirin təşkilinə verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına təşəkkürünü bildirib.

"Pəhləvan komandir" adlı sənədli filmin nəfis tərtibatlı diskləri və "Dağlar oğlu" kitabının nüsxələri hərbi hissənin kitabxanasına, əsgər və zabitlərə hədiyyə edilib.

# "Macarıstan Azərbaycanla münasibətlərin daha da inkişafına böyük önəm verir"

Milli Məclisin deputatı Qənirə Paşayevanın Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Marton Döndöşi ilə görüşündə ölkələrimiz arasında əlaqələrin inkişafı, Xocalı soyqırımına dair həqiqətlərin Macarıstanda daha geniş yayılması ilə bağlı müzakirələr aparılıb.

Görüşdə Q.Paşayeva Azərbaycan ilə Macarıstan arasında bütün istiqamətlərdə əməkdaşlığın yüksək səviyyədə olduğunu deyib. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarla bağlı son vəziyyət, Ermənistanın bölgədə törətdiyi təxribatlar barədə məlumat verib. Deputat Ermənistan-Azərbaycan münaqişəsi, xüsusilə Xocalı soyqırımı barədə həqiqətlərin Macarıstan ictimaiyyətinə daha geniş şəkildə çatdırılması istiqamətində parlamentlərarası dostluq qrupunun və onun rəhbərinin səylərini daha da artıracağına inandığını qeyd edib.

Dost Azərbaycanla bağlı məsələlərdə bundan sonra da dəstəyini əsirgəməyəcəyini deyən Marton Döndöşi bildirib ki, ölkəsi Azərbaycanla münasibətlərin bütün istiqamətlərdə daha da inkişafına böyük önəm verir. O, Azərbaycanı çox sevdiyini və hər iki ölkə arasında əlaqələrin daha da genişlənməsində maraqlı olduqlarını vurğulayıb.

Görüşdə qarşılıqlı əməkdaşlıq, həyata keçirilməsi nəzərdə tutulan yeni layihələr, ortaq tariximizin və mədəniyyətimizin öyrənilməsi, Azərbaycan həqiqətlərinin Macarıstan ictimaiyyətinə çatdırılması, Macarıstan mədəniyyətinin Azərbaycanda daha geniş tanıdılması ilə bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Hərbi yeniliklər, ənənələr



## Pilotsuz hücum-kəşfiyyat robotunun sınağı

Bu yaxınlarda Rusiyanın Qromov adına Tədqiqat-Uçuş İnstitutunda "Orion" pilotsuz hücum-kəşfiyyat robotunun sınağı həyata keçirilib. Robotun yaradılması üzrə işləri "Kronştat" şirkəti aparır. Müəssisə ilə müqavilə 2011-ci ilin oktyabrında bağlanıb. Aviasiya üzrə "Transaz" şirkətinin keçmiş vitse-prezidenti Viktor Qodunovun sözlərinə görə, mövcud layihə əsasında çəkisi 1000 tona qədər olan pilotsuz uçan aparatların yaradılması da planlaşdırılıb.

Verilən məlumata görə, "Orion"un maksimal uçuş davamiyyəti 24 saatdan az olmayacaq və hündürlüyü 8 kilometr təşkil edəcək. Bununla pilotsuz uçan aparat öz göyərtəsinə 300 kiloqrama qədər yük götürmək imkanına malik olacaq.

## İri kalibrli "KORD" pulemyotu

Son hərbi əməliyyatlarin təhlili xüsusi qurğularda, avtomobil və zirehli tanklarda, helikopterlərdə və çay qayıqlarında quraşdırılması mümkün olan iriçaplı pulemyotların hazırlanmasını tələb edirdi. Belə bir silah Kovrov adına müəssisənin istehsal etdiyi iri kalibrli "KORD" pulemyotu oldu. "KORD" silahı Deqtyarov adına zavodun əsas vizit kartı sayılır və "Kovrov silah dektyarovçuları" adı altında şifrələnir. Bu zavod dünyada ən qabaqcıl atıcı silah istehsalçısı kimi tanınır. "KORD" pulemyotu 1992-ci ildə hazırlanıb və kütləvi istehsalına 2006-cı ildə başlanılıb. 12.7 mm-li "KORD" pulemyotu düşmənin yüngül zirehlənmiş hədəflərini, atəş vasitələrini, 1500-2000 metr uzaqlıqda yerləşən canlı qüvvəsini və hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Silahdan atəş açmaq üçün 12.7x108, zirehdeşən yandırıcı B-32 və yandırıcı MDZ (MDZ-M) güllələrindən istifadə edilir. Maqazini 50 güllə həcmindədir (əgər silah tank-zenit pulemyot qurğusunda istifadə edilərsə, onun maqazini 100 və ya 150 patron tutur). Silahdan atəş qısa (2-3 atəş) və (10-12 atəş) fasiləsiz açılır. Onun söngüsüz çəkisi 25 kiloqram, uzunluğu 1577 mm, güllənin ilkin sürəti saniyədə 820-860 metr, nişangah atəş uzaqlığı 2000 metrdir, 12.7x108 və ya 12.7x99 güllələrindən istifadə olunur. Atəş tempi dəqiqədə 650-750 atəşdir.



Dünya bazarında 12.7x99 güllələrinin geniş yayılmasını nəzərə alaraq, Kovrov adına müəssisə standart 12.7 mm-li NATO patronlarını hazırlayıb. O işləmə mexanizminə, xəzinə və lüləsinin inşasına görə fərqlənir. Taktiki-texniki xüsusiyyətləri "KORD" pulemyotuna uyğun gəlir. Pulemyotdan müxtəlif mövqelərdən, eləcə də hərəkətdə olan nəqliyyat vasitələrindən, binalardan atəş açmaq olar. Çəkisinin az olması ona tez bir vaxtda səyyar vəziyyətindən döyüş vəziyyətinə gətirilməsinə imkan verir. Hesaba görə, asanlıqla atəş mövqeyini dəyişə və döyüş qaydasında hücum edən piyadalara atəş dağı dura bilir. Bir çox yerli və beynəlxalq sərgilərdə yeni "KORD" pulemyotu atəşaçma dəqiqliyinə görə üstünlük təşkil edib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Hakkaridə terror: 2 polis şəhid olub, 11 nəfər isə yaralanıb




PKK terrorçularının Türkiyənin Hakkari vilayətində polis məntəqəsinə içində partlayıcı qurğu olan avtomobillə hücumu nəticəsində 2 polis şəhid olub, 10-u polis olmaqla 11 nəfər xəsarət alıb. Hakkari Dövlət Xəstəxanasına aparılan yaralılardan vəziyyəti ağır olan 2 polis şəhid olub. Yaralanmış 10 polisə və 1 mülki vətəndaşa tibbi yardım göstərilir.

## İŞİD Suriyada baş verən partlayışın məsuliyyətini üzərinə götürüb



Suriyanın Türkiyə ilə sərhədi yaxınlığındakı Haseke vilayətinin Qamışlı rayonunda bomba yüklü avtomobilin partladılması nəticəsində ölənlərin sayı 35-ə, xəsarət alanların sayı isə 70-ə çatıb. Otuzdan çox binaya ciddi ziyan dəyib.

Partlayışın təsirindən Türkiyənin Mardin vilayətindəki Nusaybin şəhərində də 2 nəfər xəsarət alıb.

Bomba PKK terror təşkilatının Suriyadakı bölməsi olan PYD-yə aid qərargah binasının yanında işə salınıb.

İŞİD terror qruplaşması hadisə ilə əlaqədar məsuliyyəti öz üzərinə götürüb.

## Kaliforniyada təyyarə qəzası nəticəsində 4 nəfər ölüb



ABŞ-ın Kolumbiya şəhərində (Kaliforniya ştatı) "Cessna 310" tipli kiçik mühərrikli təyyarə eniş edərkən qəzaya uğrayıb.

Təyyarə yerə çırpılandan sonra partlayaraq yanıb. Hadisə nəticəsində 4 nəfər ölüb.

## Hillari Klinton ABŞ prezidentliyinə namizəd kimi təsdiqlənib



ABŞ-ın Demokratlar Partiyası sabiq dövlət katibi Hillari Klintonu cari ilin noyabrında keçiriləcək seçkilərdə ölkə prezidentliyinə namizəd kimi təsdiq edib.

Bu barədə qərar partiyanın Filadelfiyadakı qurultayında keçirilən səsvermə nəticəsində qəbul olunub. Bununla da, Birləşmiş Ştatların 240 illik tarixi ərzində ilk dəfə sistem formalaşdıran iki siyasi partiyadan biri tərəfindən ali dövlət postuna qadın namizəd irəli sürülüb.

## Çexiya polisi vətəndaşların telefon danışıqlarını dinləyir



"Dnes" qəzeti yazır ki, 2015-ci ildə Çexiya polisi müxtəlif təhqiqatlar çərçivəsində 6978 telefon danışığını dinləyib. Bu da əvvəlki illə müqayisədə 7 faiz (550 söhbət) azdır. Gizli dinləmələrin üçdəbirindən çoxu mütəşəkkil cinayətkar qrupların fəaliyyətini müəyyən etmək üçün həyata keçirilib. Polis dinləmələri siyahısının təhlilinə əsasən, dinləmələr daha çox Narkotiklərə qarşı Mübarizə üzrə Milli Mərkəz (NPC) tərəfindən həyata keçirilib. NPC ötən il 1167 xətdən 750 nəfərin telefon söhbətinə qulaq asıb. Praqa kriminal polisi 964 xətt üzrə 607 nəfərin danışığına nəzarət edib. Mütəşəkkil Cinayətkarlığın Açılması üzrə İdarənin (UOOZ) müstəntiqləri isə dinləmə cihazlarından 812 dəfə istifadə ediblər və bu dinləmələr 587 nəfəri əhatə edib.

**AZƏRTAC-ın materialları əsasında**

## Sevgi məktubu

# Vətən sevgisi



*Cəbhə bölgəsində ezamiyyətdə olarkən döyüş növbəsi çəkən əsgər Şəhriyar Abdullayevlə həmsöhbət olduq. O, Vətənini sevən əsgər, bacarıqlı döyüşçü olmaqla yanaşı, həm də ürəyi dolanda şeirlər də yazır. Maraqlı həmsöhbətdi. Düşmənə nifrətindən danışır, Vətənə sevgisindən söz açır. Yolunu gözləyən sevgilisi olduğunu və sevdiyi qıza məktub yazdığını deyir. Məktubunu qəzetimizdə dərc etdirmək istədiyimizi bildirdikdə, sevindi.*

“Sevgi nədir? Mən də bilirəm, sən də bilirsən... 4 il əvvəl ayrı-ayrı məktəblərdə oxusaq da, təsadüfən görmüşdüm səni. Yağan narın yağış saçlarını islatmış, gözəlliyinə gözəllik qatmışdı. O gün gördüm, o gün sevdim...

Gədəbəyin ən uca zirvələrindən yazıram sənə... Sevgimiztək uca olan zirvədən... Yenə ilk tanış olduğumuz gün kimi yağışlıdı hava. Hər yağış damlası səni xatırladır. Rahat ol, əzizim, ürəyi Vətən sevgisiylə döyünənlər qoruyur sizləri. Əlimdə silah, ürəyimdə sevgi, Vətəni, Vətəndə sən də varsan deyə səni düşünürəm. Bilirsən nəyi xatırlayıram? İlk görüşümüzü, ilk dəfə səni sevirəm dediyini. Başını qaldırmadan, incə, bir o qədər də kövrək səslə demişdin. O gün necə xoşbəxt idim!

Yolumu səbirsizliklə gözlədiyini bilirəm. Sənin həsrətinlə yanaşı, ürəyimdə Qarabağ həsrəti də var. Bizim həsrətimiz 18 aylıq olsa da, Qarabağ həsrəti uzun illərdi. Qarabağ onu sevənlərin sevgisinə susayıb. Sevgimiz möhkəm və əbədidir, lakin Vətən sevgisi ən uca, ali sevgidir.

Bizi indi məsafələr, yollar ayırır... Gözlərim gözlərindən uzaq olsa da, könlümdən könlünə yollar var. Sevgi yoludu, səadət yoludu bu yol. Qarabağ, əbədi Azərbaycan torpaqları yaxınımdadı. Səndən uzaq olsam da, topraqlarımıza yaxınam. Həm də çox yaxın. Ali Baş Komandanın bir əmri ilə o torpaqlara qovuşacağıq. Sevdiyimiz Qarabağımıza qovuşacağıq. Səninlə Şuşaya, İsa bulağına gedəcəyik. Görmədiyimiz, həsrət qaldığımız gözəllikləri qarış-qarış gəzəcəyik.

Bu ayrılıq keçicidir. Az qalıb, çox az. Qayıdacam, qalib ordunun əsgəri, Qarabağı azad edən əsgər kimi qayıdacam! Əgər birdən... birdən qayıtmasam, şəhid olsam, ağlama. Vətən yolunda şəhid olanlarla qürurlanarlar...

Sənin Şəhriyarın”

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu", foto M.MÖHBALIYEVİNDİR**

# İdman

## “Zirə” klubu Türkiyədə ilk yoxlama oyununda qalib gəlib



"Zirə" futbol klubu Türkiyə toplanışı çərçivəsində ilk yoxlama oyununu keçirib.

"Fənərbağça"nın dəniz səviyyəsindən 1300 metr hündürlükdə yerləşən Topuk Yaylasındakı təlim bazasında keçirilən oyunda rəqib "Qaziantep BB" klubu olub. Oyun komandamızın 1:0 hesablı qələbəsi ilə başa çatıb.

Matçın 40-cı dəqiqəsində kapitan Elvin Məmmədovun ötürməsindən sonra Təmkin Xəlilzadə oyundakı yeganə qolu vurub.

## Qadın şahmatçılarımız Bakı Olimpiadasına Qəbələdə hazırlaşırlar



Bakı Şahmat Olimpiadasında iştirak edəcək qadın şahmatçılardan ibarət Azərbaycanın birinci və ikinci komandaları Qəbələdə təlim-məşq toplanışına başlayıblar.

İkinci hazırlıq mərhələsində Zeynəb Məmmədyarova, Gülnar Məmmədova, Nərmin Kazımova, Aydan Höcətova, Nərmin Xələfova, Xəyalə Abdulla, Türkan Məmmədyarova, Nərgiz Umudova və Ülviyyə Fətəliyeva iştirak edirlər.

Qadın şahmatçılarımız Qəbələdə məşqçilər Fikrət Sideyifzadə, Konstantin Landa, Anar Allahverdiyev və Fərid Abbasovun rəhbərliyi altında hazırlaşırlar.

İkinci hazırlıq mərhələsi avqustun 5-də yekunlaşacaq.

## Azərbaycan idmançısı qrapling üzrə Avropa çempionatında gümüş medala sahib olub



"Neftçi İdman Klubu"nun təmsilçisi Hacımurad Purtiyev (84 kq) İtaliyanın paytaxtı Romada keçirilən qrapling üzrə Avropa çempionatında uğurlu çıxış edib.

İdmançımız yarışda böyük əzmkarlıq nümayiş etdirərək qitə çempionatının gümüş medalını qazanıb.

İtaliya, Ukrayna və İspaniya təmsilçiləri üzərində qələbə qazanan H.Purtiyev finala yüksəlib. O, yalnız həlledici qarşılaşmada Fransa idmançısına məğlub olub və fəxri kürsünün ikinci pilləsində qərarlaşıb.

## “Qarabağ” - “Viktoriya” matçının başlama saatı məlum olub



Futbol üzrə UEFA Çempionlar Liqasının III təsnifat mərhələsində keçiriləcək "Qarabağ" (Ağdam) - "Viktoriya" (Çexiya) cavab oyununun başlama saatı müəyyənləşib. Tofiq Bəhramov adına Respublika stadionunda təşkil olunacaq qarşılaşma avqustun 2-də saat 20:30-da başlayacaq.

Qeyd edək ki, komandalar arasında Çexiyada keçirilən ilk matçda hesab açılmamışdı.

**AZƏRTAC-ın materialları əsasında**

# “Azərbaycan ərazilərinin işğalına son qoyulmalıdır”

*Almaniya Bundestaqının üzvü, parlamentdə Xristian-Sosialistlər İttifaqının (XSİ) regional fraksiyasının baş katibi Maks Straubinger Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sorğusuna cavab olaraq açıqlama verib. Açıqlamada deyilir:*

"Almaniya parlamentində XSİ regional fraksiyası üçün tam aydındır ki, beynəlxalq hüquq və dövlətlərin ərazi bütövlüyünə hörmət şübhə altına alınmamalı, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməlidir. Şübhəsiz ki, Azərbaycan ərazilərinin beynəlxalq hüquqa zidd olan işğalına son qoyulmalı və məcburi köçkünlərə öz evlərinə geri qayıtmağa şərait yaradılmalıdır. Münaqişənin sülh yolu ilə həlli bütövlükdə regionun stabilləşdirilməsinə töhfə verəcək".

Almaniya Bundestaqının üzvü bildirib ki, 1992-ci ildən ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan danışıqlar nəticəsində sülh sazişi ("Madrid prinsipləri") üçün ərazi bütövlüyü, münaqişənin sülh yolu ilə həlli və xalqların öz müqəddəratını həll etmək prinsiplərinə əsaslanan səmərəli yolu tapıldı. Təəssüf ki, kifayət qədər vaxt sərf olunmasına baxmayaraq, danışıqlarda tərəqqi baş vermədi. Hətta 2016-cı ilin aprelində münaqişə yenidən alovlandı və bu, hər iki tərəfdən mülki insan itkisinə səbəb oldu. "Biz bu gərginləşmə ilə bağlı təəssüfümüzü bildirir, xüsusilə də mülki əhalinin həlak olması faktını pisləyirik", - deyə açıqlamada qeyd edilir.

## Ovqat

# Ruhlar nigarançılıqdan qurtaracaq

O illər tarixə döndü...

O illər xatırlandıqca yada qan-qada düşür, qara kağızlar düşür, ana fəryadı, bacı naləsi düşür. O illərdə atasızlıq ağrıları yaşamışların illərinə ağrıyırsan, ağrıyırsan.

Yaxından tanıdığım Böyük Vətən müharibəsi iştirakçılarıyla söhbət eləyəndə də bu duyğuları yaşamışam. "Ağır döyüşləriydi. Şükür ki, qalib gəldik..." - Əksəriyyəti döyüş yolundan danışmaq istəmir, bu kəlmələrlə kifayətlənir. Niyə? - itirdiyi cəbhə dostları düşür yadına, son nəfəsinə çata bilmədiyi səngərdaşını xatırlayır, döyüşdən sonra "Filankəs, filankəs, filankəs, ... yoxdu..." - məlumatının ağırlarını illər sonra yenidən yaşayır...

İsrafil Həsənovla söhbətləşəndə də belə olurdu; veteran döyüş yolundan danışmırdı, döyüşçü dostlarından danışırdı. Qafqazdan Berlinəcən döyüşən, döyüşlərdə yaralanan, müalicə olunub yenidən döyüşən həmyerlimiz böyük qələbədən sonra doğma Qəribli kəndinə qayıtdı - Tovuz rayonunun bu ecazkar təbiətli kəndi onu da qalib əsgər kimi qarşıladı.

İsrafil Həsənov müəllimiydi. Orta məktəbdə rus dili fənnini tədris eləyirdi. Hər ilin 9 mayını qəribə, başaçılmaz duyğularla yaşayırdı; İsrafil müəllimin sevinci kövrək sevinc olurdu. Bir kəlam dilinin əzbəriydi: "Heyif ki, bu günləri görmədilər. Hər biri qəhrəmanlıqla döyüşürdü..."

Neçə dəfə Əlibəylidə olub, əsgərlərimizlə söhbət eləyib. Əsgərlər İsrafil müəllimdən ata öyüdü-nəsihəti eşidiblər.

İsrafil müəllim əsgərlərin inamıyla qayıdırdı, eşitdiklərini tay-tuşlarına, camaata danışırdı. Xalqın orduya güvənci daha da artırdı...

...İllər yaş üstünə yaş gətirdi. Qarabağ müharibəsi onun da ürəyini qana döndərirdi. Ölkə rəhbərinə inanırdı, ordumuza inanırdı. İnanırdı ki, torpaqlarımız işğaldan azad ediləcək. Ömrünün qürub çağlarında deyərdi: "Torpaqlarımız işğaldan azad ediləcək. Qaçqınlar-köçkünlər ev-eşiyinə qayıdacaq. Bircə arzuma çata bilmədim. O günü mən də görmək istəyirdim, o günün sevincini mən də yaşamaq istəyirdim..."

İsrafil müəllim 94 yaşında köçdü dünyadan...

Azərbaycan əsgəri bu müqəddəs arzuya çatmayanların ruhunu nigarançılıqdan qurtaracaq. Həm də yaxın vaxtlarda!..

**Mübariz MUSAYEV, "Azərbaycan Ordusu"**

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Ağayeva Rumiyyə Mirzəcan qızına 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu matros Əliyev Natiq Ələddin oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə, şəxsiyyət vəsiqəsi və maaş kartı itdiyi üçün etibarsız sayılır.

---

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 444
Nüsxə 4650